# Ədalət Əsgəroğlunun xatirəsi yad edilib



**R.Behbudov adına Dövlət Mahnı Teatrında Azərbaycan Yazıçılar Birliyinin (AYB) təşkilatçılığı və Türkiyə Elm və Ədəbi Əsər Sahibləri Birliyinin (İLESAM) dəstəyi ilə tanınmış şair Ədalət Əsgəroğlunun anadan olmasının 60 illiyinə həsr edilmiş anım tədbiri keçirilib.** AYB-nin mətbuat xidmətinin rəhbəri, şair Xəyal Rza Ədalət Əsgəroğlunun həyat və yaradıcılığından, bir dost kimi insani xüsusiyyətlərindən söhbət açıb. Bildirilib ki, Göyçayda dünyaya göz açan şair ilk ədəbi fəaliyyətinə "Kirpi" jurnalında başlayıb. Bir sıra qəzetlərdə çalışan Ədalət Əsgəroğlu 2003-cü ildən ömrünün sonunadək Azərbaycan Yazıçılar Birliyində mətbuat katibi kimi fəaliyyət göstərib. Şeir və poemaları bir çox xarici dillərə tərcümə edilib, əsərləri bir neçə beynəlxalq mükafata layiq görülüb. Onun "Yaz ilə gələn sevda", "Göyçaydan başlayan ömür yolu", "Mən sənə aşiqəm, dünya!", "Özüm qürbətdə, gözüm Vətəndə", "Sabahını itirməyən adamlar", "Məmləkətim canım mənim...", "Dərdimizin qan rəngi" və s. kitabları oxucuların rəğbətini qazanıb.

Filologiya elmlər doktorları Vaqif Yusifli, Buludxan Xəlilov, şairlər Əli Rza Xələfli, Oqtay Rza, Qəşəm Nəcəfzadə və başqaları Ə.Əsgəroğlunun yaradıcılığında vətənpərvərlik mövzusundan söhbət açıblar. Onun Xocalı faciəsinə həsr etdiyi "Dərdimizin qan rəngi" (4 dildə) poemasının məna tutumundan, əhəmiyyətindən danışıblar.

Bildirilib ki, bu poemada qan obrazı var. Qan obrazına ədəbiyyatımızda simvolik bir obraz kimi çox rast gəlinsə də, burada Qan milli dərdin obrazı kimi diqqəti cəlb edir. Qan burada Xocalıdan bütün dünyaya yayılan fəryadın, ahın, kədərin simvoludur. Qan burada tarixdir - bir məmləkətin təklənməsi, səsinin, fəryadının boğulması, öz içində qərq olmasıdır.

Mərasimdə bədii qiraət ustaları şairin şeirlərindən ibarət kompozisiya təqdim ediblər.

Tədbirdə şairin ölümündən sonra, AYB-nin layihəsi çərçivəsində nəşr olunan "Yaşamağın dadı" adlı kitabının təqdimatı keçirilib. Kitabda şairin ömrünün son dövrlərində yazdığı əsərləri toplanıb.

Sonda şairin vaxtilə Bakıda "Şairlər günü"ndə layiq görüldüyü, lakin ala bilmədiyi "Mikayıl Müşfiq" ədəbi mükafatı oğlu Elşad Məmmədova təqdim edilib.

Elşad Məmmədov atasının xatirəsinə göstərilən ehtirama görə tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

Kaspi.-2017.-12 yanvar.-S.14.